# Məkr yuvası

## Yalnız Avropa Parlamenti kimi korrupsiyalaşmış qurumlar riyakarcasına erməni yalanlarını müdafiə edə bilərlər



Avropadakı erməni məkrinin əsas ünvanlarından biri olan Avropa Parlamenti (AP) Azərbaycana qarşı növbəti qərəzli qətnamə qəbul etməyə hazırlaşır. Bu riyakar qurumdan, əslində, fərqli mövqe, hazırda əsas gündəm olan Azərbaycan-Hayastan münasibətlərinin normallaşdırılması ilə bağlı hansısa düzgün münasibət gözləməyə də dəyməz. Çünki AP o siyasi mərkəzlərdəndir ki, 44 günlük müharibədə torpaqlarımızın işğaldan azad olunmasını, Hayastanın döyüş meydanında məğlubiyyətini həzm edə bilmirdi və ölkəmiz özünün davamlı uğurları ilə bu antiazərbaycançı təşkilatı "darmadağın" edirdi.

### Erməni lobbisinin təsir alətinə çevrilmiş təşkilat

AP həmişə irqçi, islamofob, türkofob və Azərbaycanofob mövqeyi ilə tanınıb. Bu parlament hər hansı məsələyə münasibətdə reallıqla uzlaşmayan, insanlığa sığmayan, hansısa siyasi qrupların maraqlarını müdafiə edən qərar qəbul edib, ən yaxşı halda yaxud ikili standartlardan çıxış edib. Ona görə bu təşkilatdan normal bir fəaliyyət nümunəsi gözləməyə dəyməz.

Bu təşkilat həm də uzun müddətdir ki, erməni lobbisinin əlində bir vasitə və alət rolunu oynayır. Məlumdur ki, hələ Vətən müharibəsindən əvvəl də AP davamlı şəkildə Azərbaycana qarşı qərəzli və yalan dolu qətnamələr qəbul edib ki, bunun da kökündə ölkəmizin uğurlarına və inkişafına qarşı olan qısqanc münasibət dayanıb. Azərbaycanın müstəqil siyasət yürütməsi, iqtisadi baxımdan heç bir asılılığının olmaması, yüksəlişi, qlobal məsələlərin müzakirəsində mövqeyinin qəbul edilməsi mütəmadi şəkildə erməni təəssübünü çəkən siyasi dairələrin, erməni lobbisinin maraqlarına xidmət edən mərkəzlərin ölkəmizə qarşı qərəzli davranışları ilə müşahidə olunub. Bu davranışın göstəricisi kimi Azərbaycan mühüm uğurlara imza atdığı ərəfələrdə ölkəmizə qarşı qarayaxma kampaniyalarına start verilib, Qərb ölkələrinin media orqanlarında sifarişli yazılar dərc edilib, telesüjetlər hazırlanıb, müxtəlif siyasi mərkəzlərin təsiri altında olan qeyri-hökumət təşkilatları və islamofobiya mövqeyində duran qüvvələr tərəfindən obyektivlikdən uzaq bəyanatlar səsləndirilib.

Bu, AP-nin fəaliyyətində də özünü göstərib, yalan dolu və Azərbaycan üçün adi kağız parçasından başqa bir şey olmayan qətnamələr qəbul edib. Öz riyakarlığı ilə AP Azərbaycanı dünya birliyinə qeyri-demokratik dövlət kimi təqdim etməyə, beynəlxalq ictimaiyyəti çaşdırmağa mənasız cəhdlər göstərsə də, hər dəfə uğursuzluğa məhkum olub. Bu cür fəaliyyəti ilə AP həm də Avropada maraqlarına qulluq etdiyi siyasi dairələrin "demokratiyasının" iç üzünü açıb ortaya qoyub və göstərib ki, Qərb bu anlayışdan çox uzaq düşüb. Çünki demokratiya yalan və böhtana, siyasi təzyiq vasitəsinə çevrilməməlidir.

### Azərbaycanı yolundan döndərmək mümkün deyil

Ümumiyyətlə, son dövrlər AP ancaq korrupsiya cinayətləri və Azərbaycana qarşı qərəzli addımları ilə gündəmə gəlir. Bu qurumun Yunanıstandan olan vitse-prezidenti Eva Kailinin milyonlarla dollar korrupsiya cinayətində ittiham edilməsi nə birinci, nə də sonuncu haldır. Ölkəmizə qarşı qərəzli addımlara gəldikdə isə AP-nin Azərbaycanı hədəfə alan qətnamələrinin sayı-hesabı artıq itib. Bundan əvvəl bu ilin yanvarında AP növbəti dəfə ermənipərəst xislətinə sadiq qalaraq qəbul etdiyi bədnam qətnaməsində azərbaycanlı fəalların Laçın yolunda keçirdikləri dinc aksiyanı hədəfə almış, ölkəmizi "humanitar fəlakət"də ittiham etmişdi.

AP növbəti dəfə Azərbaycana qarşı obyektivlikdən və reallıqdan uzaq, böhtan xarakterli qətnamə qəbul etməyə hazırlaşır və bu, təşkilatın bir daha ölkəmizə münasibətdə necə düşmən mövqedə dayandığını sübut edir. Qətnamə layihəsində Azərbaycanla Hayastan arasında sülh müqaviləsinin imzalanması üçün şərtlər kontekstində Hayastanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsinin vacibliyi vurğulanır. Deməli, AP beynəlxalq hüququn norma və prinsiplərinə bir daha selektiv yanaşır, 30 il ərzində Hayastanın işğalına haqq qazandırdığı kimi davranır.

Ümumiyyətlə, Avropa Parlamentinin yanaşmasında ərazi bütövlüyü anlayışı ancaq Hayastan kontekstində keçərlidir. Azərbaycana gəldikdə ərazi bütövlüyü yada düşmür. Azərbaycanı "qoşunlarını Hayastan ərazisindən çıxarmağa" çağıran Avropa Parlamenti niyə Hayastanı hələ də işğal altında saxladığı 8 Azərbaycan kəndini azad etməyə çağırmır? Vətən müharibəsindən sonra Azərbaycanın üzləşdiyi mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşının partlayışların qurbanına çevrilməsi, 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatının şərtlərinə zidd olaraq Hayastan qoşunlarının Azərbaycan ərazilərindən tam şəkildə çıxarılmaması, eləcə də Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirəcək yolun hələ də açılmaması Avropa Parlamentinin niyə yadına düşmür? Əlbəttə, ritorik suallardır. Çünki torpaqlarımızın 30 il ərzində Hayastan tərəfindən işğal altında saxlanıldığı, yüz minlərlə azərbaycanlının etnik təmizləməyə məruz qaldığı, Azərbaycanın şəhər və kəndlərinin sistematik şəkildə Yer üzündən silindiyi və sərvətlərinin talan edildiyi dövrdə susan AP həmin riyakarlığını bu gün yenə davam etdirir, özü də bu dəfə Azərbaycanı əsassız şəkildə ittiham etməklə.

AP-nin Azərbaycana münasibəti Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində nümayiş etdirdiyi səylərə bütövlükdə ziddir və normallaşma prosesinə zərbə vurur. Eyni zamanda Hayastanın Praqa və Soçidə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasından sonra AP-nin Azərbaycana qarşı qəbul etdiyi qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyini şübhə altına alması regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması istiqamətindəki səylərin üstündən xətt çəkir, Hayastanda revanşistləri ruhlandırır. Bu baxımdan regionda Hayastan tərəfindən yenidən genişmiqyaslı təxribatlar törədiləcəyi təqdirdə bunun əsas günahkarlarından biri də məhz Hayastanda revanşist qüvvələri təşviq edən AP olacaq.

AP-nin vaxtaşırı bu kampaniya xarakterli anti-Azərbaycan fəaliyyəti ölkəmizin ədalətli mövqeyinə təsir göstərmək, onu gözdən salmaq və Hayastanın xeyrinə güzəştlər əldə etmək cəhdidir. Lakin AP erməni məkrini nə qədər müdafiə etsə də, niyyətinə çata bilməyəcək, çünki Azərbaycanı öz yolundan döndərmək mümkün deyil. Vətən müharibəsi də bunu təsdiq edir. AP-nin budəfəki riyakarlığı da bumeranq effekti verərək yenə də Hayastana dəyəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***